● Ölməzliyə qovuşanlar

# Vəsiyyətinə əməl edilib

## Ailəsinə verilən sığorta ödənişi hesabına doğulduğu kəndin yolu asfaltlanıb




**Nəcməddin Natiq oğlu Quliyev 1998-ci il dekabrın 21-də Cəlilabad rayonunun Cünzəli kəndində anadan olub. O, 19 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatları zamanı şəhidlik zirvəsinə ucalıb və doğulduğu kənddə torpağa tapşırılıb.**

Nəcməddin Quliyev döyüşlərdə göstərdiyi igidliyə görə ölümündən sonra Ali Baş Komandan İlham Əliyevin sərəncamlarına əsasən, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.

Nəcməddin Quliyev hələ sağlığında şəhid olacağı halda ailəsinə veriləcək 11 min manata Cünzəli kəndinin yollarına asfalt çəkilməsini vəsiyyət etmişdi. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi tərəfindən şəhidin vəsiyyəti yerinə yetirilib və Cəlilabad rayonunun Cünzəli kəndinin yolları asfaltlaşdırılıb.

Gizir Nəcməddin Quliyevin vətəndaş mövqeyi, böyük igidliyi, şəhid olduğu halda vəsiyyət etdiyi sözlər Azərbaycanı sevən insanları çox kövrəltmişdi. Onlardan biri də qocaman müəllim, heykəltaraş Eldar Həsənovdur. Qəhrəman gizirin vəsiyyəti ona çox təsir etmişdi. Heykəltaraş qısa zamanda şəhidimizin heykəlini yaratdı. Ona bu işdə tələbəsi Əliyar Allahverdiyev və gənc memar Nigar Cəbrayılova kömək etdilər.

Bir heykəltaraş kimi böyük təcrübə və istedada malik olan Eldar Həsənov hazırda təqaüdçü olmasına baxmayaraq, yaradıcılıq fəaliyyətini davam etdirir. Ərsəyə gətirdiyi çoxsaylı plastika nümunələri içərisində Nəcməddin Quliyevin büstünü heykəltaraşın mühüm yaradıcılıq nailiyyəti hesab etmək olar.

Büst hər cür süni təmtəraqdan uzaqdır. Heykəltaraş əsərində qəhrəmanın sadəlik və nikbinlik kimi keyfiyyətlərini üzə çıxarmağı bacarmışdır. O, təsvir etdiyi obrazın zahiri bənzəyişini olduqca dəqiq vermiş, eyni zamanda gizirin fəaliyyətini ümumiləşdirən cizgilər tapmışdır. Şəhidin geniş, ağıllı alnı, eləcə də üzünün digər cizgiləri olduqca real əks olunub.

Bu büstü heykəltaraş öz vəsaiti hesabına hazırlamış və şəhidin ailəsinə bağışlamışdır. Hazırda büst şəhidin çəkdirdiyi asfalt yolun kənarında - oxuduğu məktəbin yaxınlığında qoyulub. Cünzəli kəndinin sakinləri və qonaqları hər gün şəhidimiz ilə görüşür və ona rəhmət oxuyurlar.

Sonda arzu edərdim ki, gizir Nəcməddin Quliyev kimi Vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş igidlərimizin və digər qəhrəmanlarımızın da obrazı əbədiləşdirilsin - onların hər birinə həsr olunmuş heykəl və ya büst yaradılsın və yeni nəslin nümayəndələri şəhidlərimizi öz yaddaşlarında, ürək və qəlblərində əbədi yaşatsınlar, böyük minnətdarlıqla yad etsinlər.

***Həşim PAŞAYEV,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

Azərbaycan.- 2024.- 26 iyun, № 131.- S.14.